# Tarix və Etnologiya İnstitutunun Azərbaycan Milli Elmlər Akademiyasının tarixində yeri

**2025-ci ilin mart ayında Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 ili tamam olur. XX əsrin birinci yarısında AMEA-nın təsis edilməsi Azərbaycan xalqının elmi və ictimai fikir tarixində, ümumən sosial-mədəni tərəqqisində mühüm hadisə olmuş, ölkəmizin inkişafında əhəmiyyətli rol oynamışdır. Respublikanın başlıca elmi müəssisəsi olan Azərbaycan Elmlər Akademiyasının təsis edilməsi haqlı olaraq XX yüzilliyin birinci yarısında Azərbaycan xalqının ən mühüm nailiyyətlərindən biri hesab edilir.**



AMEA 80 illik tarixi ərzində zəngin elmi ənənələri olan Azərbaycan xalqının intellektual potensialının formalaşdırılmasında, elmin müasir tələblərindən irəli gələn strateji istiqamətlərinin müəyyənləşdirilməsində, fundamental və tətbiqi, innovativ elm sahələrinin inkişafında, respublikada peşəkar elmi kadrlar nəslinin yetişdirilməsində müstəsna rol oynamışdır. Akademiyanın əldə etdiyi uğurlar, mühüm elmi nəticələr, onların istehsalata tətbiqi nəticəsində yaranan sosial-iqtisadi nailiyyətlər, müxtəlif elm sahələrində milli elmi məktəblərin yaranması, yeni elmi nəsillərin yetişdirilib hazırlanması xalqımızın dinamik sosial-iqtisadi və mədəni-mənəvi inkişafının əsas göstəriciləridir. Elmin müvafiq istiqamətlərində geniş tədqiqatlar aparan, onu yeni biliklərlə zənginləşdirən, tanınmış elmi məktəblər yaradan, elmin inkişafında görkəmli xidmətləri olan Akademiya üzvləri respublikamızın sosial-iqtisadi və mədəni-mənəvi inkişafında mühüm rol oynayırlar.

2025-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun yaranmasının 90 ili tamam olur. Milli Elmlər Akademiyası sistemində özünəməxsus yeri olan və Şimali Azərbaycanda tarix elminin təşəkkülündə başlıca və aparıcı rol oynamış A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu həm mürəkkəb, həm də şərəfli bir tarixi inkişaf yolu keçmişdir. Yaradıldığı dövrdən indiyədək ildən-ilə institutun fəaliyyəti məzmun və keyfiyyətcə dəyişmiş, elmi-tədqiqat işlərinin əhatəsi genişlənmiş, elmi potensialı güclənmişdir. Mövcud olduğu 90 il ərzində müxtəlif adlarla fəaliyyət göstərən bu qocaman elm ocağı Azərbaycanda tarix elminin inkişafında müstəsna rol oynamış, Azərbaycan xalqının milli təfəkkürünün formalaşmasında misilsiz xidmətlər göstərmişdir.

1923-1929-cu illərdə Azərbaycanın milli elmi fikrin təşəkkül tapmasında və inkişafında müstəsna dərəcədə böyük rol oynamış "Azərbaycanı Tətqiq və Tətəbbö Cəmiyyəti" respublikanın tarixində ciddi elmi prinsiplərə və müasir tədqiqat metodlarına dayanan ilk Azərbaycanşünaslıq mərkəzi oldu. Cəmiyyətin xüsusilə Tarix-etnoqrafiya seksiyasının üzvlərinin elmi araşdırmalarının mərkəzində Azərbaycanın tarixi, arxeologiyası, etnoqrafiyası, məişəti, adət-ənənələri, dili, folkloru, ədəbiyyatı, psixologiyası, fəlsəfəsi, texnikası, tibbi, iqtisadiyyatı, geologiyası və s. dayanırdı.

1929-cu ildə Cəmiyyətin bazası əsasında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (AzDETİ) təşkil edilmiş və onun tərkibində Tarix-etnoqrafiya şöbəsi yaradılmışdı. Azərbaycan tarix elmi XX əsrin 20-30-cu illərində sovet elminin tərkib hissəsi kimi təşəkkül taparaq, vahid marksist-leninçi ideologiyaya müvafiq inkişaf etməyə başladı. Tarix elminin kommunist ideologiyasına tabe edilməsi, onun dövlətin və hakim bolşevik partiyasının mənafeyinə xidmətinin təmin olunması, sosializmin üstünlüklərini nümayiş və təsdiq edən vasitəyə çevrilməsi üçün ilk addımlar atıldı. Qısa müddət ərzində AzDETİ digər elmi müəssisələrlə birlikdə Azərbaycan xalqının tarixi keçmişinə, həmçinin Azərbaycanla həmsərhəd olan Şərq ölkələrinin tarixinə dair ilk mənbələrin çapa hazırlanması, beynəlxalq elmi əlaqələrin inkişafında əhəmiyyətli nəticələr əldə etdi. Bu dövrdə respublikada AzDETİ-də və ali məktəblərdə ilk dəfə aspirantura təşkil olundu, gənc milli elmi işçilərin bütöv bir dəstəsi hazırlandı, elmi-tədqiqat işlərinə köhnə alimlərin ən yaxşı hissəsi cəlb edildi.

Sonralar SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi (EA ZFAzŞ) (1932-1935) yaradıldı və onun tərkibində Tarix sektoru fəaliyyət göstərirdi. Sektor Azərbaycanın tarixi, maddi mədəniyyəti tarixi problemləri ilə məşğul olurdu. 1934-cü ildə Azərbaycan Dövlət Universitetində Tarix fakültəsi açıldı. 1940-cı ildə universitetdə "Azərbaycan tarixi" kafedrası yaradıldı. Bundan sonra ölkənin bütün ali məktəblərində olduğu kimi, Azərbaycanda da tarix elmi, daha geniş miqyasda inkişaf etməyə başladı.

1935-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının (EAAzF) (1935-1945) təşkili respublikada elmin yeni, daha yüksək inkişaf səviyyəsinə qaldırılması demək idi. 1930-cu illərin əvvəllərindən Azərbaycan elmi yeni, akademik elm statusu qazanmış oldu. EAAzF-nın nəzdində müstəqil Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu yaradıldı və 1936-cı il martın 1-dən fəaliyyətə başladı. Həmin gün vətən elminin tarixinə Tarix İnstitutunun yaranma günü kimi daxil oldu. Bu institutun yaradılması nəinki Azərbaycan tarixinin öyrənilməsində, habelə yardımçı tarixi fənlərin - arxeologiyanın, numizmatikanın, etnoqrafiyanın, epiqrafikanın, Azərbaycanın memarlıq və incəsənət tarixinin öyrənilməsi sahəsində mühüm addım oldu. Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu respublikanın yeganə elmi mərkəzi idi ki, burada bütün elmi-tədqiqat fəaliyyətinin ümumi rəhbərliyi cəmləşmişdi. Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun işinin istiqaməti və xarakteri mərhələdən mərhələyə dəyişir, tədqiqatçı vəzifələrinin dairəsi genişlənir, onun elmi potensialı artırdı. Azərbaycan alimləri Vətən və dünya elminin inkişafına getdikcə daha qiymətli töhfələrini verirdilər.

27 mart 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası yaradılarkən Tarix İnstitutu onun tərkibinə daxil edilmişdi. Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması respublikanın mədəni həyatında olduqca önəmli hadisə oldu. O, Azərbaycanda elmin davamlı yüksəlişindən və elmi kadrların yetkinliyindən xəbər verirdi.

Azərbaycan tarixinin öyrənilməsinin böyük tarixi ənənəsi olsa da, onun sistemli şəkildə tədqiqinə ötən əsrin 50-ci illərindən başlanıb və sovet tarixşünaslığının tərkib hissəsi kimi inkişaf edib. XX əsrin 1950-1960-cı illərdə aparılan maraqlı və gərgin axtarışları nəticəsində Azərbaycan tarixi Qədim Şərq ölkələri tarixi dairəsinə, onun əsas tərkib hissəsinə daxil oldu. Bu illərdə Azərbaycanda tarixçi alimlər nəslinin yetişməsi bir çox elmi problemlərin həllinə şərait yaratdı, elmin bütün sahələrinin, o cümlədən, Azərbaycan tarixinin akademik səviyyədə tədqiqinə başlanıldı.

XX əsrin 1970-1980-cı illərində Tarix İnstitutunda Azərbaycan tarixinin ən qədim dövrünün - Manna, Atropatena və Albaniya tarixinin aktual məsələləri, antik arxeologiya, etnik problemlər və s. üzrə tədqiqatlarda köhnə baxışlar yenidən nəzərdən keçirildi, bölgə sakinlərinin etnik, iqtisadi, siyasi və mədəni həyatının köklü məsələləri üzrə yeni müddəalar irəli sürüldü, Azərbaycan ərazisindəki ayrı-ayrı arxeoloji mədəniyyətlərin etnik atribusiyası verildi. Arxeoloqların Paleolit, Mezolit, xüsusilə də Eneolit, Tunc və Dəmir dövrlərinin öyrənilməsi üzrə aparılan tədqiqatları nəticəsində Azərbaycan tarixinin xronoloji çərçivəsi əsaslı şəkildə genişləndirildi.

Müstəqiilik illərində (1997-2003) A.A.Bakıxanov Tarix İnstitutunun nəşr etdiyi yeddi cildlik "Azərbaycan tarixi" milli tariximizin hadisələrinin qədim dövrlərdən müasir dövrlərə qədərki tarixinin işıqlandırmaq sahəsində mühüm addım oldu. Bu akademik əsərin müəllifləri arasında hələ sovet üçcildliyinin nəşrində iştirak edən tədqiqatçılar da var idi. Təbii ki, bu müəlliflər öz əvvəlki qiymətləndirmələrini və nəticələrini yenidən nəzərdən keçirərək araşdırmaları yeni mövzular və sənədli faktlarla əhəmiyyətli dərəcədə tamamladılar. Bu səbəbdən də Azərbaycan tarixinin müxtəlif aspektlərini araşdıran müəlliflər sovet dövründə mövcud olan stereotipləri, yanlış postulatları yeni mövqelərdən aradan qaldırmağa çalışmış, yeni sənədlər cəlb etməklə əvvəlki nəşrlərdə qaldırılan problemlərinin əhatə dairəsini genişləndirmiş və zənginləşdirmişlər.

Müxtəlif dövrlərdə bu elm ocağına ölkəmizin görkəmli tarixçi alimləri - akademik İ.İ.Meşşaninov (1936-1937), akademik İsmayıl Hüseynov (1941-1944; 1958-1960), akademik Əbdülkərim Əlizadə (1944-1950), tarix elmləri doktoru, professor Məmmədəli Şərifli (1950-1951), Azərbaycan SSR EA-nın müxbir üzvü Əlövsət Quliyev (1952-1958; 1967-1969), Azərbaycan SSR EA-nın müxbir üzvü Zülfəli İbrahimov (1960-1967), akademik Əlisöhbət Sumbatzadə (1970-1972), akademik Cəmil Quliyev (1972-1978), akademik İqrar Əliyev (1978-2004) rəhbərlik etmişlər.

2004-2021-ci illərdə İnstitutun direktoru akademik Yaqub Mahmudov olmuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra A.A.Bakıxanov adına Tarix İnstitutunda vətən tarixinin məqsədyönlü şəkildə unudulmuş səhifələrinin, itirilmiş torpaqlarımızın tarixinin araşdırılaraq bugünkü və gələcək nəsillərə çatdırılması məqsədilə dünyanın müxtəlif ölkələrinin dövlət arxivlərində (İngiltərə, Fransa, Almaniya, Rusiya Federasiyası, Gürcüstan, Türkiyə, Hindistan, İran İslam Respublikası, İtaliya) saxlanılan çoxsaylı arxiv sənədlərin gətirilməsi işi aparılmış, instituta gətirilmiş sənədlərin xeyli hissəsi çap olunmuşdur. Artıq sənədlər toplusundan ibarət 30-a yaxın kitab çap edilmişdi. Tarix İnstitutunun fəaliyyətində "Azərbaycan tarixinin ümumi konsepsiyası" və ondan irəli gələn bəzi elmi istiqamətlərin tədqiqi məsələlərinə geniş yer ayılmışdır.

A.A.Bakıxanov adına Tarix İnstitutun əməkdaşları son illərdə Ermənistanın Azərbaycan Respublikasına qarşı ərazi iddialarının əsassız olduğunu sübut etmək üçün təkzibedilməz tarixli sənədlər əsasında Azərbaycanın Naxçıvan, İrəvan, Göyçə, Zəngəzur, Borçalı mahallarının, Tiflis əmirliyi, Car-Balakən camaatlığı, İlisu sultanlığı, bir sözlə, Şimal-Qərbi Azərbaycan torpaqlarının, Dərbənd, Samur vadisinin və ən nəhayət Qarabağın tarixi ilə bağlı hərtərəfli və dərindən elmi tədqiqatlara başlamışdılar. Keçən qısa müddət ərzində Qarabağın, Naxçıvanın tarixi, Qərbi Azərbaycanın, o cümlədən İrəvanın tarixi, Şimal-Qərbi Azərbaycanın torpaqlarının tarixinə, XX əsrdə Azərbaycan xalqına qarşı soyqırımları tarixinə həsr olunmuş fundamental tədqiqat əsərləri yazılmış və bir neçə mühüm beynəlxalq elmi forumlar keçirilmişdir.

2020-ci il xalqımız və dövlətimiz üçün çox əlamətdar hadisə ilə - böyük tarixi qələbə ilə yadda qalmışdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük bacarıq və qətiyyəti, dönməz iradəsi ilə ikinci Qarabağ savaşı xalqımızın Böyük Qələbəsi ilə başa çatmışdır. Bu münasibətlə ölkə rəhbərinin Sərəncamı ilə Azərbaycan Respublikasında Zəfər Günü təsis edilmişdi.

2021-ci ilin 28 yanvar tarixindən İnstitutun direktoru tarix elmləri doktoru, professor Kərim Şükürov oldu. 90-cı ildönümünü yaşayan Tarix və Etnologiya İnstitutu tariximizin tədqiqi baxımdan ölkənin ən öndə gedən elmi təşkilatı olmaqla yanaşı, yeni inkişaf mərhələsinə qədəm qoydu.

2021-ci ildə Bakı Şəhər İcra Hakimiyyəti və AMEA Tarix İnstitutunun birgə layihəsi ilə 44 günlük Vətən müharibəsi və Zəfərimizin ildönümünə həsr olunmuş "Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək", "Böyük qayıdış", "Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru", "Zəfər memuarları. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitablar müharibə tarixinin ilk ümumiləşdirilməsi cəhdlərindən biridir. Kitablar müharibənin əvvəlindən bu günədək olan bütün mərhələləri əhatə edir. Birinci Qarabağ müharibəsindəki məğlubiyyət, onun səbəbləri, Vətən müharibəsindəki qələbə kitabların hazırlanması prosesində iştirakçılar tərəfindən ətraflı araşdırılıb. İnstitutun direktoru tarix elmləri doktoru, professor Kərim Şükürovun rəhbərliyi ilə və tarixçi alimlərin səyi nəticəsində bu kitablar işıq üzü görüb.

2023-cü il "Heydər Əliyev ilinə" həsr olunmuş Bakı Şəhər İcra Hakimiyyəti və AMEA Tarix İnstitutunun birgə layihəsi olan "Heydər Əliyev" kollektiv monoqrafiya, "Heydər Əliyev ilinə" həsr olunmuş nəşrlər üzrə institutun bir neçə kitabı: T.Kərimova-Kocayevanın "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası", İlqar Niftəliyevin "Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında Heydər Əliyevin rolu (1960-1991)", N.Məmmədovun "Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri) adlı monoqrafiyaları, "Heydər Əliyev və tarix problemləri" və "Heydər Əliyev irsinin aktual problemləri" adlı məqalələr topluları nəşr olunmuşdu. Professor K.Şükürovun redaktorluğu ilə "Azərbaycan Respublikasının tarixi" çoxcildliyin 1991-2003-ci illər tarixi dövrünü əhatə edən 1 və 2 cildi nəşr olunub. Halhazırda "Azərbaycan tarixi" bircildlik üzərində iş davam edir.

Azərbaycan xalqının dövlətçilik və müstəqillik tarixində şərəfli bir səhifə olan 44 günlük Vətən müharibəsi zamanı böyük Zəfərə aparan yolda əldə edilmiş möhtəşəm uğurlardan biri, heç şübhəsiz ki, Şuşa şəhərinin işğaldan azad edilməsi oldu. Çünki məhz Şuşa şəhərinin erməni işğalından azad edilməsi Qarabağda aparılan müharibənin taleyini həll etdi, böyük və tarixi Zəfərin yolunu açdı. AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı 4 tədbir (2 konfrans, 2 dəyirmi masa) keçirilmiş, 1 broşür çap olunmuşdu. 30 oktyabr 2023-cü il tarixində isə, "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı "Şuşada bərpa və quruculuq işləri: nailiyyətlər və perspektivlər" mövzusunda elmi konfrans keçirilmiş, işğaldan azad edilmiş Şuşada həyata keçirilmiş bərpa və quruculuq işləri ilə bağlı əldə olunmuş nailiyyətlər və perspektivdə olan işlərlə bağlı fikir mübadiləsi aparılmışdı. 1 dekabr 2023-cü il tarixində "Şuşa türk dünyası tarixində" mövzusunda elmi konfrans keçirilmişdi. Eyni zamanda, institutun əməkdaşı tarix elmləri doktoru Mehman Süleymanovun "Şuşa, sən azadsan!" adlı kitabı çap olunmuşdu.

Azərbaycan Respublikası Prezident İlham Əliyev Qərbi Azərbaycana qayıdışla bağlı səsləndirdiyi fikirlərdə bu torpaqlardan deportasiyaya, soyqırımına məruz qalmış Azərbaycan əhalisinin taleyi ilə bağlı son 200 illik tarix üzrə tədqiqatların aparılması və Qərbi Azərbaycana qayıdış konsepsiyasının hazırlanması göstərişini verib. 2023-cü ildə Tarix və Etnologiya İnstitutunda "Qərbi Azərbaycan tarixi" və "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı" elmi-tədqiqat şöbələri yaradılıb. Artıq bu istiqamətdə genişmiqyaslı tədbirlərə, fundamental tədqiqatların aparılmasına başlanılıb. İnstitutun Qərbi Azərbaycan tarixi şöbəsində aparılan tədqiqatların əsas istiqamətlərini ən qədim dövrdən bugünədək Qərbi Azərbaycanın tarixinin araşdırılması, tarixi atlasın tərtib edilməsi təşkil edir. Qərbi Azərbaycan tarixi ilə bağlı tədqiqatlar ölkə Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan icmasında çıxışı zamanı səsləndirdiyi fikirlərdən sonra daha kompleks, daha sürətli aparılmağa başlandı. E.Qarayevin "Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında)" monoqrafiyası çap olundu (2024). 2023-cü il noyabrın 29-da "Rəvandan İrəvana və Qərbi Azərbaycana" adlı Beynəlxalq konfrans keçirilmişdi.

Hazırda İnstitutda "Əliyevşünaslıq", "Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq", "Qədim tarix", "Atropatena və Albaniya (Qafqaz) tarixi", "Azərbaycanın VII-XIV əsrlər tarixi", "Azərbaycanın XV-XVIII əsrlər tarixi", "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi", "Azərbaycan Xalq Cümhuriyyəti tarixi", "Azərbaycanın Sovet dövrü tarixi", "Azərbaycan Respublikasının tarixi", "Qərbi Azərbaycan tarixi", "Azərbaycanın beynəlxalq əlaqələr tarixi", "Ümumi tarix" elmi-tədqiqat şöbələri fəaliyyət göstərir. Bundan əlavə Elmi şura, Gənc alim və mütəxəssislər şurası, elmi arxiv və kitabxana, beynəlxalq əlaqələr, həmkarlar təşkilatı və s. institutun tərkibinə daxil edilib.

2022-2024-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya şuralarında 60-dan çox dissertasiya işinin müdafiəsi keçirilib. Həmin müdafiələrə rəsmi opponentlər qismində Türkiyə, Gürcüstan, Qazaxıstan, Rusiya Federasiyası, Ukrayna, Özbəkistandan olan mütəxəssislər cəlb olunmuşdur. İnstitutun əməkdaşlarının məqalələri mütəmadi olaraq Web of Scinece, Scopus ULAKBİM və RİNS bazalarına daxil olan jurnallarda dərc olunur.

İnstitutda mütəmadı olaraq beynəlxalq və respublika səviyyəli konfranslar, sessiyalar, dəyirmi masalar keçirilir. Belə ki, 2021-ci ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Memarlıq və İnşaat Universitetinin birgə təşkilatçılığı ilə "Qafqaz Albaniyası: tarix, din və memarlıq" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans keçirilmişdi. Beynəlxalq konfransda 9 ölkəni - Almaniya, Norveç, Fransa, İtaliya, Türkiyə, Rusiya, Litva, Gürcüstan və Azərbaycanı təmsil edən alimlər iştirak etmişdir. Koreya Avrasiya Türk Araşdırmaları İnstitutu və A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə təşkilatçılığı ilə Koreya-Azərbaycan II Humanitar forumu keçirilmişdi. Ziya Bünyadovun 100 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2023-ci il 28 sentyabr tarixli Sərəncamına əsasən 13 dekabr 2023-cü ildə "Akademik Ziya Bünyadov: müharibə və elm cəbhəsinin qəhrəmanı" adlı respublika elmi konfrans, 30 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən 2024-cü ildə M.Ə. Rəsulzadənin 100 illiyinə həsr olunmuş dəyirmi masalar keçirilmişdi.

Olduqca əlamətdar bir haldır ki, AMEA Tarix və Etnologiya İnstitutunun 90 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edildiyi, ölkəmizin regionda və dünyada nüfuzunun yüksəldiyi və öz inkişafının yeni mərhələsinə qədəm qoyduğu bir dövrə təsadüf edir. Hazırda özünün yeniləşmə dövrünü yaşayan Tarix və Etnologiya İnstitutu Azərbaycan Respublikasının müəyyən etdiyi vəzifələri həyata keçirmək istiqamətində genişmiqyaslı islahatlar apararaq yenidən qurulmaqda və inkişaf etməkdə davam edir.

**Tamilla KƏRİMOVA-KOCAYEVA**
**tarix elmləri doktoru**